**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.306

**AYAN XƏLİLOVA***

# AZƏRBAYCANDA KAŞI SƏNƏTİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

*Kaşı sənəti, Azərbaycan dekorativ-tətbiqi sənətinin əsas sahələrindən biri kimi qədim tarixə və zəngin inkişaf mərhələlərinə malikdir. Bu sənət növü, qədim Mesopotamiya və Misirdən başlayaraq, Səlcuq, Səfəvi və Osmanlı imperiyaları dövründə klassik formasını tapmış, Azərbaycan ərazisində isə əsasən dini və ictimai memarlıqla sıx şəkildə əlaqəli olmuşdur. Orta əsrlərdə, xüsusilə Təbriz, Naxçıvan, Bərdə, Ərdəbil və Şirvan bölgələrində kaşı istehsalı və tətbiqi geniş yayılmış, memarlıq abidələrinin fasad və interyerlərində zəngin ornamentlər və kufi, nəstəliq xətti ilə yazılmış epiqrafik kompozisiyalar yaradılmışdır.*

*Kaşı istehsalı texniki baxımdan mürəkkəb və mərhələli bir proses olub, xammalın hazırlanmasından başlayaraq, qəlibləmə, naxışlama, şirələmə və bişirmə mərhələlərini əhatə edirdi. Həndəsi və nəbati motivlərin sintez olunduğu bu sənət, eyni zamanda, ideoloji və dini məzmun daşıyaraq memarlığın tərkib hissəsinə çevrilmişdir.*

*Sovet dövründə zəifləyən bu ənənə XXI əsrdə bərpa və konservasiya layihələri çərçivəsində yenidən dirçəlməyə başlamışdır. UNESCO-nun irsi siyahısına daxil olan abidələrin bərpası və dövlət dəstəyi ilə bu sənətin gələcək nəsillərə ötürülməsi üçün əlverişli zəmin yaranmışdır. Azərbaycan kaşı sənəti, texniki dəqiqliyi, orijinal üslubu və regional memarlıqla vəhdəti baxımından İslam dünyasında seçilən sənət məktəblərindən biridir.*

***Açar sözlər:*** *Azərbaycan, kaşı sənəti, inkişaf xüsusiyyətləri, dekorativ-tətbiqi sənət, bədii tərtibat*

Kaşı sənəti, dekorativ-tətbiqi sənətin bir sahəsi olaraq, minilliklər boyu formalaşaraq bədii və texniki cəhətdən yüksək təkamül yolu keçmişdir. Bu sənət növü Mərkəzi Asiya, Yaxın Şərq, Anadolu və Cənubi Qafqazda geniş yayılmaqla yanaşı, Azərbaycan incəsənətinin də ayrılmaz tərkib hissəsi kimi inkişaf etmişdir.

Qədim və zəngin tarixə malik olan kaşı sənətindən hələ qədim dövrlərdə binaların bədii tərtibatında və xüsusilə divarları örtmək üçün istifadə olunurdu. Yunanlar, romalılar, assuriyalılar və misirlilər kimi qədim sivilizasiyalar çoxrəngli kaşılardan yüksək ustalıqla rəngarəng mozaika kompozisiyaları yaratmışlar ki, bu da qədim abidələrə unikal və dəbdəbəli görkəm verirdi.

Azərbaycan ərazisində kaşı sənətinin inkişafı bölgənin zəngin memarlıq və dekorativ-tətbiqi sənət ənənələri ilə sıx şəkildə bağlı olmuşdur. Qədim dövrlərdən etibarən bu torpaqlarda keramika və kaşı istehsalı inkişaf etmiş, xüsusilə Orta əsrlərdə yeni estetik keyfiyyətlər və texnoloji üsullarla zənginləşmişdir. "*Azərbaycanda kobalt filizinin külli miqdarda olması və bu dövrdə ondan firuzəyi şir üçün səmərəli istifadə edilməsi nəticəsində xüsusi kaşıların istehsalı genişlənirdi. Çünki memarlıq abidələrinin xarici və daxili tərtibatında bu kaşılardan geniş istifadə edilirdi. Təbrizdə, Ərdəbildə, Naxçıvanda, Bərdədə və Şirvanın bəzi yerlərində tikilmiş məscidlərin, türbələrin, hamam və binaların bədii tərtibatında işlənmiş müxtəlif rəngli (xüsusən abı, göy, firuzəyi) kaşıların nümunələri hələ indiyə qədər qalmışdır" (2, s.69).*

Kaşı sənəti Azərbaycanda sadəcə bəzək məqsədilə deyil, həm də dini və ideoloji mənaları ifadə edən bir sənət növü kimi formalaşmışdır. Rəngli kaşı mozaikasının formalaşması Şərq xalqlarına xas olan memarlıq sisteminin ayrılmaz tərkib hissəsidir. Bu sahənin parlaq nümunələrinə, xüsusilə, Orta Asiya, İran və Azərbaycan memarlıq abidələrində rast gəlirik. Orta əsrlərdə kaşının istifadə prinsipi, sadə həndəsi formalı kaşılarla yanaşı, kompleks nəbati fiqurların keramika elementləri formasında yaradılmasını da əhatə edirdi.

Kaşı sənətinin ilkin nümunələrinə həmçinin eramızdan əvvəlki dövrlərdə Əhəməni və Sasanilər dövrünün monumental memarlıq nümunələrində də rast gəlinir. Lakin onun klassik forması İslam mədəniyyətinin yayılması ilə, xüsusilə Səlcuq və sonradan Osmanlı imperiyaları dövründə sistemli şəkildə inkişaf etmişdir. XIII-XVI əsrlər ərzində İsfahan, Təbriz, Nişapur, Kəşan və Herat kimi sənət mərkəzlərində kaşı istehsalı özünün ən yüksək mərhələsinə çatmışdır. Azərbaycanda isə bu sənət əsasən memarlıqla, əsas etibarilə məscid, mədrəsə və türbə kimi dini abidələrin inşası ilə paralel inkişaf etmişdir. Xüsusilə Şirvanşahlar dövrü memarlığında və sonrakı Qaraqoyunlu və Səfəvi dövrlərində kaşı bəzəklərinin rolu önə çıxır.

Kaşı sənəti təkcə dekorativ-tətbiqi sənətin bir növü kimi deyil, eyni zamanda simvolik və ideoloji yük daşıması ilə də xarakterizə edilir. Rənglərin harmoniyası, ornamentlərin simvolizmi və yazıların (xüsusilə kufi və nəstəliq xətti ilə işlənmiş Quran ayələri və hədislər) istifadəsi bu sənəti daha da zənginləşdirir.

Kaşı sənətinin əsas səciyyəvi xüsusiyyətlərindən biri onun istehsal texnologiyasının mürəkkəbliyi və sənətkarın yüksək texniki və estetik hazırlıq səviyyəsini tələb etməsidir. Kaşı istehsalı uzunmüddətli, mərhələli və dəqiqliklə yerinə yetirilən bir prosesdir. Bu prosesin ilk mərhələsi xammal seçimi və gil kütləsinin hazırlanmasıdır. Belə ki, kaşı istehsalında istifadə olunan əsas material gil olub, onun yüksək plastiklik qabiliyyətinə malik, tərkibində duz və digər zərərli qarışıqlar olmayan forması seçilir. Orta əsrlərdə kaşı ustaları əsasən Kəşan, Təbriz və Nişapur kimi bölgələrdən əldə olunan xüsusi növ gillərə üstünlük vermişlər. Gil uzun müddət yoğurularaq homogen kütləyə çevrilir və ondan sonra formalaşdırmaya hazır vəziyyətə gətirilir. Daha sonra formalaşma və qəlibləmə prosesi gedir. Gil kütləsi lazımi ölçülərdə plitələr şəklində qəliblənir. Bu mərhələdə kaşıların kvadrat, düzbucaqlı, altıbucaqlı, ulduz formalı və digər müxtəlif həndəsi biçimdə formalaşdırılması mümkündür. Ornamentlərin bir-biri ilə əlaqəli şəkildə yerləşməsi üçün əvvəlcədən kompozisiya planı tərtib olunur. Bu mərhələdən sonra qurudulma və ilkin bişirmə prosesi baş verir. Formalaşdırılmış plitələr təbii şəraitdə – kölgədə və hava axını olan məkanda qurudulur. Qurudulma mərhələsi çox vacibdir, çünki gil plitə bu mərhələdə bərkiyir və sobada bişirilməyə hazır hala gəlir. Daha sonra plitələr 800-900°C temperaturda ilkin bişirməyə məruz qalır. Bu prosesdən sonra isə kaşılara dekorativ bəzəklərin tətbiqi və şirə qatının vurulması başlayır.

İlkin bişirmədən sonra kaşıların üzərinə naxışlar və yazılar çəkilir. Bu mərhələdə istifadə olunan boyalar əsasən mineral mənşəlidir – kobalt (mavi), mis oksidi (yaşıl), manqan (qara), dəmir oksidi (qəhvəyi) və s. Naxışlar iki üsulla tətbiq edilə bilər: ya birbaşa boya ilə, ya da çərçivə (kontur) çəkilərək içi doldurulmaqla. Ardınca plitələr üzərinə şirə – şəffaf və ya rəngli şirə vurulur. Bu, kaşını həm parlaq edir, həm də onu nəmə və xarici təsirlərə qarşı dözümlü hala gətirir.

Növbəti proses kaşının ikinci dəfə birişirlməsidir. Şirə vurulmuş kaşılar təkrar olaraq sobaya yerləşdirilir və bu dəfə 950-1050°C temperaturda bişirilir. Bu mərhələdə şirə qatının gil plitə ilə tam birləşməsi baş verir. Rənglər daha parlaq və sabit olur. Bundan sonra montaj və tətbiq etmə prosesi başlayır. Belə ki, hazır məhsullar memarlıq obyektlərinin səthinə xüsusi məhlullar vasitəsilə yapışdırılır. Ornamentlərin düzülüşü əvvəlcədən müəyyənləşdirilmiş naxış sisteminə uyğun şəkildə aparılır. Kaşıların birləşmə yerləri elə tənzimlənir ki, bütöv kompozisiya təəssüratı yaratsın. Çox vaxt bu mərhələdə ustalar kaşıların üzərinə imzalarını və ya istehsal tarixi ilə bağlı yazıları da əlavə edirdilər.

Azərbaycan kaşı sənətinin formalaşmasının inkişaf mərhələləri aşağıdakı kimi müəyyən edilir:

1. Erkən İslam dövrü (VII-X əsrlər): Bu dövrdə sadə keramik bəzəklərə üstünlük verilmiş, ornamentlər əsasən relyefli və ya cızma üsulu ilə işlənmişdir;
2. Şirvanşahlar dövrü (XI-XV əsrlər): Bu mərhələdə kaşı sənətinin inkişafında ciddi keyfiyyət sıçrayışı baş vermiş, memarlıq ansambllarında mozaik tərzli kaşı örtükləri geniş yayılmışdır;
3. Səfəvilər dövrü (XVI-XVIII əsrlər): Rəng palitrası zənginləşmiş, mavi, firuzəyi, yaşıl və ağ tonlar üstünlük təşkil etmişdir. Kaşı üzərində nəstəliq yazı nümunələri və təkrarlanan nəbati motivlər geniş tətbiq olunmuşdur;
4. XIX-XX əsrlər: Kaşı sənəti zəifləsə də Naxçıvan və Gəncə kimi bölgələrdə məhdud formalarda davam etdirilmişdir;
5. Müasir dövr: Azərbaycanda bir çox dini və xatirə tikililərinin bərpasında kaşı sənətindən geniş istifadə edilmişdir.

Azərbaycanda böyük keramika mərkəzləri, rənglərin bolluğu və kompozisiya formalarının çeşidliyi bu sənətin formalaşmasına şərait yaratmışdır. Yaxın Şərq ölkələrinin çoxsaylı memarlıq abidələrində bu tip kaşılar geniş yayılmışdır. Memarlar və ustalar bu texnikanı dərinliklərinə qədər öyrənmiş, onu yeni formalarda təkmilləşdirmişlər. Bu inkişaf, eyni zamanda, ornament təsvirlərinin, ənənəvi dizayn sxemlərinin və xəttatlıq məktəblərinin Azərbaycan mədəniyyətindəki rolu ilə əlaqələndirilir.

Azərbaycanda kaşıların tətbiqi estetik ifadə vasitəsi olmaqla yanaşı, həm də konstruktiv və funksional məqsədlərə xidmət etmişdir. Bu bədii kaşı nümunələri əsasən iki əsas qrupa ayrılır. Birinci qrupa aid edilən kaşılar, adətən düzbucaqlı və ya kvadrat formalı olub, frizlərdə və haşiyə elementlərində işlənərək kompozisiyanın çərçivəvi quruluşunu təmin edirdi. İkinci əsas qrupu təşkil edən kaşılar isə səkkizguşəli ulduz formasında olub, divar səthlərini xalça tipli ümumi naxış planı ilə örtmək üçün nəzərdə tutulmuşdur. Bu kompozisiyalarda ulduz motivləri arasında qalan boşluqlar xüsusi olaraq hazırlanmış xaçvari plitələrlə doldurularaq bütöv və harmonik naxış strukturu formalaşdırılırdı.

Azərbaycanın Orta əsrlər memarlıq irsində bu cür mürəkkəb və yüksək sənətkarlıq səviyyəsinə malik kaşı bəzəklərinə malik olan bir sıra abidələr qorunub saxlanılmışdır. Bu baxımdan XIII-XV əsrlərə aid Pirsaatçay çayı üzərində yerləşən Pir Hüseyn xanəgahı xüsusilə qeyd olunmalıdır. Bu tikili təkcə dini deyil, həm də memarlıq və dekorativ-tətbiqi sənət baxımından yüksək dəyərə malikdir. Digər önəmli nümunələr sırasında Naxçıvanda yerləşən XII-XIV əsrin görkəmli abidələri – Yusif Küseyir ğlu, Möminə Xatun və Qarabağlar türbəsi, 1322-ci ilə aid Bərdə türbəsi və Təbriz şəhərində yerləşən XV əsrə aid Göy məscid, Qusar rayonunun Həzrə kəndindəki Şeyx Cüneyd türbəsi (XVI əsr) və Ərdəbildəki Şeyx Səfi kompleksi (XIII-XVII əsrlər) yer almaqdadır. Qeyd olunan abidələrin kaşı bəzəkləri təkcə texniki dəqiqliyi və rəng harmoniyası ilə deyil, həm də kompozisiya baxımından mükəmməl quruluşu ilə seçilir. Bu dövrün abidələri arasında Pir Hüseyn xanəgahı xüsusilə fərqlənir və Azərbaycan kaşı sənətinin zənginliyini və inkişaf səviyyəsini ən dolğun şəkildə əks etdirən nümunələrdən biri hesab olunur.

Qeyd edək ki, Azərbaycan kaşı mozaikasının Mərkəzi Asiya və İran abidələri kontekstində izlənməsi daha aydın mümkün olur. Bu fakt Azərbaycanlı memar və ustaların bölgə sənətindəki aparıcı rolunu müəyyənləşdirir. Xüsusilə XV əsrdə - Teymurilər dövründə Azərbaycandan aparılan ustalar tərəfindən bu sənət Mərkəzi Asiyada daha da inkişaf etdirilmişdir. *“Teymurun mərkəzləşmiş imperiyasında hər şey bir-birilə eyniyyət təşkil edir, bir-birilə culğalaşırdı. Azərbaycan sənətkarları Orta Asiyada, İranda və başqa ölkələrdə öz məharətlərini göstərərək böyük tikililər tikməklə bərabər, həm də onun bədii tərtibatını verirdilər. Bədii kaşı sənəti texniki cəhətdən təkmilləşir, onun palitrası genişlənir, ornament sistemi zənginləşirdi. Bədii keramika ustaları öz professional səviyyələrinə görə məşhurlaşdıqları üçün Şərqin müxtəlif regionlarına dəvət olunurdular” (3, s.61).*

Azərbaycan kaşı sənəti, İslam ölkələrində inkişaf edən dekorativ-tətbiqi sənət məktəbləri arasında özünəməxsus üslubu və texniki üstünlükləri ilə seçilən bir istiqamət kimi formalaşmışdır. Bu sahənin təkamülü İran, Anadolu və Mərkəzi Asiya regionlarında paralel inkişaf edən kaşı məktəbləri ilə qarşılıqlı təsirdə olmuş, eyni zamanda bu mədəni əlaqələr fonunda orijinal və milli bədii-estetik xüsusiyyətlərini qoruyub saxlamışdır. Bu məktəblərin hər birində kaşı dekorları sarayların, məscidlərin, türbələrin və karvansaraların həm interyerində, həm də eksteryerində tətbiq olunur, tikililərin ideya-mənəvi məzmununu estetik cəhətdən tamamlayan təsviri elementlərə çevrilir.

Azərbaycan kaşı sənətinin özünəməxsus fərqləndirici xüsusiyyətləri vardır. Belə ki, Azərbaycan kaşı sənətində Arran, Naxçıvan-Marağa və Şirvan-Abşeron memarlıq məktəblərinin ornament ənənələri birləşir. Naxçıvan memarlığında mürəkkəb girih şəbəkələri və fiqurlu hörgülərlə tamamlanan kaşı ornamentləri çoxüzlü gövdələr və taxça sistemləri ilə inteqrasiya olunmuş şəkildə təqdim olunur.



**Möminə Xatun türbəsinin kaşı ilə tərtib edilmiş eksteryeri. Fraqment. XII əsr.**

Azərbaycanda kaşı dekoru yalnız divar üzlüyü kimi deyil, kompleks memarlıq həndəsəsi – günbəzlər, baştağlar, taxçalar – ilə plastiki vəhdət təşkil edir. Bu, kaşının yalnız üzlük materialı deyil, həm də memarlıq formasının bir hissəsi olduğunu göstərir.

Azərbaycan kaşı sənətində həndəsi və nəbati ornamentlərin olduqca çox uğurlu sintezi müşahidə olunur. Belə ki, Azərbaycan kaşılarında həndəsi sərtliklə nəbati zərifliyin bir kompozisiyada birləşdirilməsi, xüsusilə Möminə Xatun, Yusif Küseyir oğlu türbəsi və Göy Günbəz abidələrində müşahidə olunur. Səlcuq zənciri, fiqurlu kərpiclərlə əlaqəli şəkildə tətbiq edilən firuzəyi kaşıların möhkəm relyeflərə yerləşdirilməsi və ssraffito texnikasının memarlıq kaşılarına tətbiqi Azərbaycanın bu sahədə texnoloji çevikliyini göstərir.

Nəticə etibarilə qeyd edək ki, Azərbaycanın zəngin bədii irsinin ayrılmaz hissəsi olan kaşı sənəti, orta əsrlər dövründə memarlıq dekorunun ən önəmli formalarından biri olmuş, xüsusilə məscid, türbə və xanəgahların bədii tərtibatında geniş yer tutmuşdur. Lakin bu sənət növü XX əsrin ortalarından etibarən, sənayeləşmənin və modern tikinti texnologiyalarının genişlənməsi ilə tədricən unudulmağa başlamış, dekorativ-tətbiqi sənət sahələri sırasında zəifləmişdir.

Sovet hakimiyyəti illərində ideoloji və iqtisadi səbəblərdən dini memarlığın inkişafı ləngimiş, memarlıq bəzəklərində ənənəvi material və texnikaların yerini daha ucuz və tez başa gələn texnoloji üsullar almışdır. Nəticədə kaşı kimi əməktutumlu və sənətkarlıq tələb edən sənət növü praktik olaraq yalnız bərpa işləri və lokal təşəbbüslərlə məhdudlaşmışdır. Buna baxmayaraq, XXI əsrdə milli-mədəni irsə artan maraq, bədii ənənələrin dirçəldilməsi istiqamətində dövlət və ictimaiyyət tərəfindən həyata keçirilən bir sıra layihələr sayəsində, kaşı sənətinə maraq tədricən yenidən canlanmağa başlamışdır. Bu proses özünü daha çox bərpa və konservasiya layihələrində göstərməkdədir.

Müasir dövrdə yeni inşa edilən məscid və dini mərkəzlərdə isə kaşı sənətindən istifadəyə çox az rast gəlinir. Müasir memarlıqda kaşı sənətinin geniş tətbiq olunmamasının səbəbləri sırasında sənətin texniki mürəkkəbliyi, ustaların azlığı və kaşı istehsalının maddi baxımdan yüksək xərc tələb etməsi başlıca amillərdir. Bununla belə, UNESCO-nun maddi-mədəni irs siyahısına daxil olan abidələrin bərpası zamanı kaşı bəzəklərinin yenidən işlənməsi, bu sənətin gələcək inkişafı üçün potensial imkanlar yaradır. Bu xüsusda, sənət məktəblərində kaşı sənətinin öyrədilməsi və dövlət səviyyəsində bu sənətə dəstək verilməsi mühüm rol oynaya bilər.

Beləliklə, Azərbaycan kaşı sənəti İran, Anadolu və Orta Asiya məktəbləri ilə bədii və texnoloji baxımdan qarşılıqlı təsir şəraitində inkişaf etmiş, lakin öz lokal memarlıq məktəblərinə əsaslanan orijinal üslubunu qoruyub saxlamışdır. Texniki dəqiqlik, ornament ritmi və memarlıq həcminə inteqrasiya baxımından Azərbaycan kaşı sənəti İslam dünyasının kaşı mirasında ayrıca bir xətt kimi seçilir.

## ƏDƏBİYYAT

1. Baxşəliyev V., Quliyeva F. Naxçıvanın tarixi abidələri. Bakı, Nurlan, 2017. 212 s.
2. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, "Şərq-Qərb", 2007, 160 səh. + 112 səh. (illüst.)
3. Ələkbərov E. Azərbaycan memarlığında bədii keramika. Dərs vəsaiti. Bakı, 2019. 92 s.
4. Hüseynov R., Seyidov A. Yerin altından qayıtmış gözəllik (Ədəbiyyat muzeyindəki arxeologiya nümunələri). Bakı, "Araz", 2009. 328 s.
5. İbrahimova T. Kaşılar Azərbaycanın tarixi və mədəni irsini öyrənmək üçün qiymətli mənbə. Kataloq. Bakı, 2014. 26 s.



***Azərbaycan Rəssamlıq Akademiyasının dissertantı***
***E-mail: ayan.khalil7@gmail.com***



## Ayan Khalilova


### DEVELOPMENT FEATURES OF TILES ART IN AZERBAIJAN


Tile art, as one of the main branches of Azerbaijani decorative and applied art, possesses an ancient history and rich stages of development. Originating from ancient Mesopotamia and Egypt, this art form found its classical expression during the Seljuk, Safavid, and Ottoman empires, while in Azerbaijan, it was primarily closely linked with religious and public architecture. In the Middle Ages, especially in the regions of Tabriz, Nakhchivan, Barda, Ardabil, and Shirvan, the production and application of kashi became widespread, creating rich ornaments and epigraphic compositions written in Kufic and Nastaʿlīq scripts on the facades and interiors of architectural monuments.

From a technical perspective, kashi production was a complex and multi-stage process, encompassing steps from raw material preparation to molding, patterning, glazing, and firing. This art, synthesizing geometric and botanical motifs, simultaneously carried ideological and religious content, becoming an integral part of architecture.

This tradition, which weakened during the Soviet period, began to revive in the 21st century within the framework of restoration and conservation projects. The restoration of monuments included in UNESCO's heritage list, along with state support, has created a fertile ground for transmitting this art to future generations. Azerbaijani kashi art stands out as one of the prominent art schools in the Islamic world due to its technical precision, original style, and unity with regional architecture.



**Keywords:** *Azerbaijan, tile art, development characteristics, decorative and applied art, artistic design.*



**Аян Халилова**


### РАЗВИТИЕ И ОСОБЕННОСТИ ИСКУССТВА ИЗРАЗЦОВ В АЗЕРБАЙДЖАНЕ


Искусство изразцов, являющееся одним из основных направлений азербайджанского декоративно-прикладного искусства, имеет древнюю историю и богатые этапы развития. Этот вид искусства, начиная с Древней Месопотамии и Египта, обрел свою классическую форму в периоды Сельджукской, Сефевидской и Османской империй, а на территории Азербайджана был тесно связан в основном с религиозной и общественной архитектурой. В Средние века, особенно в регионах Тебриза, Нахчывана, Барды, Ардебиля и Ширвана, производство и применение каши было широко распространено, создавая богатые орнаменты и

эпиграфические композиции, написанные шрифтами куфи и насталик, на фасадах и в интерьерах архитектурных памятников.

Производство изразцов с технической точки зрения представляет собой сложный и многоступенчатый процесс, начиная с подготовки сырья и заканчивая этапами формовки, нанесения узоров, глазурования и обжига. Это искусство, в котором синтезируются геометрические и растительные мотивы, одновременно несло идеологическое и религиозное содержание, становясь неотъемлемой частью архитектуры.

Эта традиция, ослабшая в советский период, начала возрождаться в XXI веке в рамках проектов реставрации и консервации. Благодаря восстановлению памятников, включенных в список наследия ЮНЕСКО, и государственной поддержке, создана благоприятная почва для передачи этого искусства будущим поколениям. Азербайджанское искусство каши является одной из выдающихся художественных школ исламского мира с точки зрения технической точности, оригинального стиля и единства с региональной архитектурой.

**Ключевые слова:** *Азербайджан, искусство изразцов, особенности развития, декоративно-прикладное искусство, художественное оформление.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**